# 100 İLLİK TARİXİMİZİ TURİZMLƏ TANIDAQ

AXC Şərqdə ilk parlament dövlətinin fəaliyyətində sosial və iqtisadi yönüm diqqət mərkəzində olan xüsusi sahələrdən idi. Cümhuriyyətin iqtisadi və siyasi platforması bütün vətəndaşların həqiqi hüquq bərabərliyini bərqərar edərək, demokratik bir cəmiyyət qurmağı nəzərdə tuturdu.

Həmin dövrdə Azərbaycan iqtisadiyyatı yalnız ikiqütblü idi: neft və aqrar sektor. Kənd təsərrüfatı və neft sənayesi o vaxt iqtisadiyyatın əsas özülünü və ölkə əhalisinin 76 faizinin fəaliyyət və dolanışıq mənbəyini təşkil edirdi.

Lakin Cümhuriyyət hökuməti qısa bir zamanda dünyanın bir sıra



ölkələri, o cümlədən 1918-ci il iyunun 4-də Türkiyə, 1919-cu il mayın 23-də İran, daha sonra İngiltərə, ABŞ, Fransa, İtaliya, Gürcüstan, Ermənistan, Dağıstan, Orta Asiya dövlətləri ilə iqtisadi əlaqələr yaratmağa nail olmuşdu. Bəzi dövlətlərlə ticarət müqaviləsi bağlanmış, bəziləri ilə isə şifahi razılıq əldə edilmişdi. Bütün mənfi təsirlərə baxmayaraq, Xalq Cümhuriyyətinin rəhbərliyi ölkədə iqtisadi vəziyyətin yaxşılaşması, sosial problemlərin həlli istiqamətində ciddi addımlar atmağa cəhd edir, müxtəlif sosial proqramların həyata keçirilməsini planlaşdırırdı.

Həyata keçirilən islahatlar deməyə əsas verir ki, Cümhuriyyət hökuməti yaşasaydı, ölkədə iqtisadiyyatın mühüm qolu olan turizmin inkişafına da nail olacaqdı.

### Müstəqil Azərbaycanın müstəqil turizm siyasəti var

Çox sevindirici haldır ki, bu vacib və əhəmiyyətli sahənin inkişafı Cümhuriyyətin varisi olan müstəqil Azərbaycanın iqtisadi siyasətində qeyri-neft sektoru üzrə prioritet istiqamət elan olundu.

Müstəqillik qazandığımız vaxtdan ötən müddətdə məqsədyönlü dövlət siyasəti nəticəsində ölkəmiz bu sahədə böyük nailiyyətlər əldə edib. Nailiyyətlərin əsasında Azərbaycanın zəngin mədəniyyətinin, təbii gözəlliklərinin, turizm imkanlarının xaricdə tanıdılması, hər fürsətdən istifadə edib respublikamıza gələn xarici turistlərin sayının artmasına nail olmaq durur. Bütün bunların nəticəsidir ki, Azərbaycan yeni bir turizm istiqaməti kimi artıq bütün dünyada tanınır. Ölkəmizə gələn turistlərin sayı ildən-ilə artır. Həm Bakıda, həm regionlarda infrastruktur təkmilləşdirilir. Yeni yollar çəkilir, mövcud yollar bərpa edilir. Həyata keçirilən infrastruktur layihələrinin reallaşması nəticəsində bölgələrdə müasir kurort və yerləşdirmə obyektləri yaradılır. Ölkəmizdə turizm infrastrukturunun müasir standartlara uyğunlaşdırılması, mövcud turizm məhsullarının təkmilləşdirilməsi, yeni məhsulun yaradılması turizmin perspektiv inkişafına imkan verir. Və bütün bunlara görə, təbii ki, müstəqilliyimizə və onun əsası olan Cümhuriyyətimizə borcluyuq.

Cümhuriyyətin 100 yaşı ilə əlaqədar ölkə prezidentinin sərəncamına əsasən müxtəlif tədbirlər reallaşdırılır, layihələr həyata keçirilir.

Turizm istiqamətində də yüzilliklə bağlı müəyyən tədbirlərin keçirilməsi planlaşdırılır.

### Bu il 8-ci Şairlər Günü Cümhuriyyətə həsr olunacaq

"Millennium Tourism and Congress" şirkətinin və Azərbaycan Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə mayın 29-da Gürcüstanın paytaxtı Tbilisidə M.F.Axundzadənin ev muzeyində Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümünə həsr olunan tədbir keçiriləcək. Daha sonra Zəlimxan Yaqubun xatirəsinə həsr olunmuş 8-ci Şairlər Günü münasibətilə bir neçə günlük infotura start veriləcək.

Azərbaycan Yazıçılar Birliyinin mətbuat katibi Xəyal Rzanın dediyinə görə, tədbirə Türkiyənin tanınmış ədəbiyyat və sənət adamlarından, jurnalistlərdən ibarət 20-yə yaxın qonaq qatılacaq. Ölkəmizdə də 2018 Hərəkatı üzvlərinin bir qismi tədbirin iştirakçıları arasında olacaq. Sonra tədbir iştirakçıları Azərbaycana gələcəklər. İnfotur çərçivəsində mayın 30-da Şamaxıda Fikrət Sadığın, 31-də Gəncədə Nigar Rəfibəylinin, iyunun 1-də Şəmkirdə Əhməd Cavadın, iyunun 2-də Tovuzda Mikayıl Azaflının, iyunun 4-də Sumqayıtda Əli Kərimin, iyunun 6-da Bakıda Qabilin, 7-də Beyləqanda Mücirəddin Beyləqaninin, iyunun 8-də Şabranda Xaqani Şirvaninin xatirəsinə həsr olunmuş tədbirlər keçiriləcək: "Bu il 8-ci Şairlər Günü Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümünə ithaf ediləcək. Həmin münasibətlə 8 ildə ilk dəfə Şairlər Günü tədbirlərində Türk Dünyasının, o cümlədən Özbəkistan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan, Türkiyənin tanınmış şairlərinin də həyat və yaradıcılığı haqqında məlumatlar veriləcək. Bununla yanaşı, Türkiyə Elmi və Ədəbi Əsər Sahiblərinin Məslək Birliyi (İLESAM), Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Milli Kitabxanası, Türkiyə Milli Kitabxanası, Azərbaycan Mədəniyyət Nazirliyi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı, TİKA-nın təşkilati dəstəyi ilə 15 min kitab Azərbaycana gətirilir və Şairlər Gününü təşkil edəcəyimiz bölgələrdə bu kitabların bir qismi paylanacaq".









### Turizm tədbirləri həm daxildə, həm xaricdə Cümhuriyyəti təbliğ edəcək

Azərbaycan Turizm Assosiasiyası (AZTA) da Cümhuriyyətlə bağlı müxtəlif layihələr nəzərdə tutub. Qurumun İdarə Heyəti sədrinin müşaviri Müzəffər Ağakərimovun dediyinə görə, tədbirlərin il ərzində keçirilməsi nəzərdə tutulur: "Bizim dünyanın 5 ölkəsində nümayəndəliklərimiz fəaliyyət göstərir. Bunlar Malayziya, BƏƏ, Türkiyə, Rusiya və Hindistandadır. Hindistandakı nümayəndəliyimiz yeni yaradılıb. Bu nümayəndəliklərimiz vasitəsilə Cümhuriyyətimizin 100 illiyi ilə bağlı həmin ölkələrdə müxtəlif təbliğat işləri aparırıq, Azərbaycanın Şərqdə ilk demokratik respublika olması barədə məlumat veririk".

Assosiasiya rəsmisi deyir ki, bir neçə gündən sonra Şanxayda AZTA-nın dəstəyi ilə geniş bir sərgi açılacaq. Qurumun orada da nümayəndəliyini açmaq niyyətimiz var. Sərgidə təkcə Azərbaycanın turizm potensialı barədə deyil, eyni zamanda, Cümhuriyyət tariximizlə bağlı reklam-məlumat məhsulları nümayiş etdiriləcək. Sərgidə Azərbaycanın bu günə gəlib çatmasında, ikinci dəfə müstəqillik qazanmasında o tarixin rolu barədə məlumatlar öz əksini tapacaq: "Üçüncü bir tərəfdən, bilirsiniz ki, AZTA ekskursiya bələdçiləri hazırlamaq üçün kurslar təşkil edir. Artıq bu kurslarda üçüncü məzunlarımızı buraxmışıq. Onların ekskursiya zamanı turistləri Azərbaycan Xalq Cümhuriyyəti haqqında məlumatlandırması barədə xüsusi təbliğat aparırıq. Belə maarifçiliyin təkcə 100 illik daxilində deyil, hər zaman reallaşdırılması tövsiyə edilir. Bunun üçün biz onlara həmin tarix haqqında ətraflı məlumatların əks olunduğu xüsusi mətnlər də hazırlayıb vermişik. Çünki ekskursiya bələdçiləri ən gözəl təbliğat vasitələridir. Onlar ölkənin təbliğində, təşviqində, mədəniyyəti, tarixi haqqında məlumatların dünyaya çatdırılmasında çox mühüm rol oynayırlar".

### "Babaların zəfər yolu" ilə infotur...

AZTA daha bir layihəni Azərbaycan Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyası və Kənd Yaşıl Turizmi Assosiasiyası ilə birlikdə həyata keçirmək niyyətindədir. Hər üç qurum bir yerdə infotur təşkil etməyi planlaşdırır. İnfotur ölkəmizin şimal-qərb rayonlarını əhatə edəcək. "Babaların zəfər yolu" adlı bu layihədə iştirak etmək üçün Azərbaycan turizmçiləri Türkiyədəki həmkarlarını da dəvət etmək niyyətindədirlər. Müzəffər Ağakərimov deyir ki, Azərbaycanda ermənilərin törətdikləri qırğınların qarşısını almaq üçün Türk qoşunları da məhz həmin istiqamətdə hərəkət ediblər: "Bilirsiniz ki, Azərbaycan və Türkiyə arasında "Babaların Tarixi Zəfər və Şəhadət Yolu" adlı Qafqaz regionu ölkələrini əhatə edəcək beynəlxalq turizm marşrutunun təşkili qərara alınıb. Bizim yaradacağımız infotur da təxminən bu marşrutu əhatə edəcək, amma Azərbaycan daxilində".

Bundan əlavə, Azərbaycan Turizm və Menecment Universiteti ilə AZTA birlikdə geniş bir konfrans düzənləməyi də planlaşdırır. ◆

Fəxriyyə Abdullayeva